*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 417-423*
https://doi.org/10.62837/2024.4.417

**İSMAYILOVA GÜNAY ARİF QIZI**
**Doktorant**
**Tərcümə və filologiya kafedrası**
**Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli 71**
**gunay.ismayilova@au.edu.az**

# S.MOEMİN YARADICILIĞINDA SNOBİZM VƏ İNCƏSƏNƏT PROBLEMİ
## (“Ay və qara qəpik” romanı əsasında)

Mövcud olduğu əsrlər ərzində Britanya İmperiyası Viktoriya dövründə ictimai şüurun xusüsi formasını inkişaf etdirdi. Bu forma iyerarxik prinsipə əsaslanan davranış normalarının, əxlaqi göstərişlərin, ictimai-siyasi dəyərlərin və psixoloji münasibətlərin mürəkkəb məcmusu idi; onun ayrılmaz tərkib hissələri İngilis zabiti və centlmen anlayışı, “ağ adam”, “sahib” və “doğma” arasındakı xəttin barışmazlığı idi. Bir sözlə, bu, əsrlər boyu müstəmləkəçiliyin təcrübəsi ilə zənginləşdirilmiş ənənəvi ingilis snobizmi idi.

Snobizmin xüsusiyyəti və onun Viktoriya dövrünün əxlaqı üçün yaratdığı real təhlükə terminin özünün tarixinə xas olan ziddiyyətlə izlənilə bilər. Oksford lüğəti bu sözün qeyri-müəyyən mənşəli jarqon olduğunu qeyd edir. XVIII əsrdə “pinəçi şagirdi” ifadəsi kimi istifadə edilərək aşağı təbəqədən olan insanlara qarşı vulqar münasibəti özündə ehtiva edirdi.

Oksford universitetində “snob” sözü zadəgan ailəsindən olmayan uşaqlara deyilirdi. Latın dilində *“sine nobilitate”*-*“əsli nəvabəti olmayan”* mənası ifadə edən bu söz XIX əsrdə Kembric tələbələri tərəfindən şəhərin universitetlə əlaqəsi olmayan orta və aşağı təbəqə vətəndaşlarına hörmətsizliklə müraciət etmək üçün istifadə edilməyə başladı. OED (Old English Dictionary) əsasən bu ifadə *“çox az və ya heç zövqü olmayan”* mənasında geniş istifadə edilməyə başladı. ( 9)

Snoblar yüksək cəmiyyətin qaydalarına ciddi-cəhdlə riayət edir və bu qaydalardan kənara çıxan hər şeyə laqeyd yanaşırlar. Snobizm anlayışı da buradan yaranmış və tədricən bu anlayış bir çox mənalar kəsb etmişdir.

Birincisi, müəyyən sosial təbəqəyə aid olmaq iddiasında olan və sosial baxımdan özündən aşağıdakılara ikrah hissi ilə baxanlar “snob”dur. Çox zaman belə bir insanın özü də vaxtilə əyalətdən gəlmişdir və bu şəkildə hərəkət etməklə özünün indiki durumu ilə “kəndli” arasında fərqi vurğulamağa çalışır.

İkincisi, snobizm zövq və intellekt məsələsidir. Snobizm insana olmadığı lakin olmaq istədiyi şəxs kimi hiss etməyə, insanın ürəyindən keçən qrupa (zəngin, intellektual və s.) aid olmağı nümayiş etdirməyə və eyni zamanda bu qrupa aid olmayanlarla onun arasında fərqi vurğulamağa xidmət edir.

Snobzim problemini çox az sayda yazıçı tənqidçi və Blumsberi dərnəyinin üzvü Rocer Fray qədər dəqiqliklə anlayaşa bilmişdir. Rocer Fray bu estetik iddianı

modernizm tarixi fenomeni kimi müəyyən etmiş, "sənətin snobizm üzərində qurulan sosial institut olduğu" və dəyərlərin simvolik axını kimi bəşəriyyərə lazım olduğu qənaətinə gəlmişdir. (1)

Dünya ədəbiyyatında ən yadda qalan snob obrazlarına U.Tekkereyin "Şöhrətpərəstlik yarmarkası" əsərindəki Beki Şarp, Ş. Brontenin "Ceyn Eyr" romanındakı Miss Rid, Ç.Dikkenzin "Böyük Ümidlər" əsərində Pip obrazlarını misal çəkmək olar. Viktoriya dövrü snobları siyahısına " sənət, sənət üçündür" həzzinə qərq olmaqla sinfin, millətin, burjua siyasətinin fəal şəkildə tənqid edən ədəbi estetik qrupunu da əlavə etmək olar.

Britanya üçün XX əsr ümumiyyətlə milli sərvətin və güclü tənəzzül dövrü idi. Bu əsr çoxlu insan həyatının və əmlakın məhvinə səbəb olan iki dünya müharibəsi ilə üzləşməli oldu. Birinci Dünya Müharibəsi Britanya İmperiyasını çox zəiflətdi. İkinci Dünya Müharibəsi Britanya İmperiyasının parçalanmasının son mərhələsi oldu. Bir vaxtlar günəş batmayan imperiya nəhayət dağıldı. Bütün bunlar Qərbi Avropada K.Marksın və F.Engelsin elmi sosializm nəzəriyyəsi, Ç.Darvinin təkamül nəzəriyyəsi, A.Eynşteynin nisbilik nəzəriyyəsi, Z.Freydin analitik psixologiyası kimi müxtəlif fəlsəfi fikirlərin yaranmasına səbəb oldu. 1910-cu ildə Ziqmund Freyd "qəribə" və sensasiyalı psixoanaliz nzəriyyəsini irəli sürdü. Təhtəlşüur və psixoloji repressiya mexanizmi nəzəriyyələri ilə tanınan Z.Freyd bildirir ki, psixoanaliz insan şüuraltında baş verənlərlə həmin şəxsin hərəkətləri və davranışlar arasındakı əlaqəni vurğulayır. Z.Freydə görə, insanların müəyyən hissləri onun şüuraltında sıxışdırılır, lakin müqavimət göstərir və ya yuxularda özünü büruzə verir. (3) XX əsrin ingilis yazıçıları by texnikanı öz dövrlərinin xaosunu və məyusluğunu təsvir etməkdə faydalı hesab edirdilər.

İngilis ədəbiyyatının C. Svift, C.Ousten, Ç.Dikkenz, U.Tekkerey və T.Hardi ənənələrini inkişaf etdirən, snobizmin bədii təcəssümündə xüsusi məharət nümayiş etdirən S.Moem ironiyası ümumiyyətlə insana deyil, onun sosial konvensiyaların normativ tələblərinin təsiri altında təhrif olunan təbiətininin ifşasına yönəlmişdir.

S.Moem *"İti ülgüclər" (The Razor's Edge, 1944)* romanında Eliot Templton obrazının təsvirini verərkən həmin dövr snobunun xüsusiyyətlərini açırdı. Müəllifin nəzər-nöqtəsindən müxtəlif fəzilətlər -səxavət, xeyirxahlıq və mərhəmət bəxş etdiyi Eliot Templton xarakteri bütün qeyri-müəyyənliyi ilə oxucunun gözündə təsvirolunmaz komik, bəzən isə sadəcə yazıq kimi təsvir edilirdi. Çünki bir "modus vivendi" kimi snobluq onun həyatını ilğım arxasında mənasız bir axtarışa çevirir.

*"Qorxurdular ki, o, snobdur. Əlbəttə ki, belə idi . O, ölçüyəgəlməz dərəcədə bir snob idi. Və bundan utanmırdı. O, getmək istədiyi məclisə dəvət olunmaq üçün və ya yüksək zümrədən olan bir qoca dul qadınla əlaqə yaratmaq üçün hər cür kobudluğu udar, hər cür təhqirə dözər, hər hansı rədd cavabını gözardı edərdi. Bundan usanmırdı."* (6,s.2)

Birinci Dünya müharibəsindən sonra insanların döyüş meydanında, yaşadıqları dəhşətli təcrübələr - xəstəxanalarda gördükləri, ölüm, iztirab, şikəstlik, səfalət və s. kimi hadisələr dünyaya nihil münasibəti sərgiləyən pessimisit əhval-ruhiyyənin hökm sürməsi ilə nəticələnmişdi. XX əsrdə özgələşmə Avropa

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 417-423*
cəmiyyətində antoqonist xarakter kəsb etdi, yəni insanla cəmiyyət, insanla başqası, insanla təbiət, insanla məhz özü arasında ziddiyyət elə bir hala gəlib çıxdı ki, o səviyyədə kəskinləşdi ki, insan faktiki olaraq həyatın bütün sahələrində əlaqə və münasibətlərindən məhrum oldu, özünü bu dünyadan təcrid olunmuş-özgə hiss etdi.

S.Moemin "Ay və qara qəpik" romanının protaqonisti- yaradıcılıq naminə xarici dünya ilə əlaqəni kəsən Strikİənd özünü şüurlu şəkildə tənhalığa məhkum edir ki, bu da yeniliçi rəssamın öz dünyasında mövcud olma formasına çevrilir. Bu bir tərəfdən Striklədin xarakteri ilə əlaqəli idisə, digər tərəfdən cəmiyyətin ona göstərdiyi mənfi təsirlə əlaqələnirdi. Yazıçı XX əsrin əvvəllərində "İncəsənət adamları dəbi" yarandığı burjua cəmiyyətini təsvir edir. Xanım Strikłənd tez-tez məşhurları ona baş çəkməyə dəvət edir çünki, dostu Roza Uetfordun dediyinə görə "dəbdən geri qalmaq" istəmir. Əsərin əvvəində gənc yazıçı, həm də təhkiyəçinin dilindən "*Bu elə bir məclis idi ki, istər –istəməz heyrət edirdin: niyə zəhmət çəkib gəliblər? Məclisdə on adam vardı. Bir-birinə laqeyd adamlar; elə ayrılmaqları da laqeyd olacaqdı. Kübar cəmiyyətdə belə məclislər cəza kimi idi, mültəq çəkməli idin. Striklərdlər ailəsi üçün önəm daşımayan bu adamları nahara dəvət etməyə "borclu idilər."* (4,s.24) fikirlərinin səslənməsindən aydın olur ki, Strikləndin xanımı üçün bir o qədər də əhəmiyyəti olmayan insanların nahar məclislərinə dəvət edilməsi zəruri idi. Bununla onlar, yüksək zümrə içində hörmətə sahib olacaqlardı. Lakin bütün bunlar Strikləndin dünyasına yaddır. Strikləndlərin bu zərif qonaq otağında əslində evin sahibi üçün yer yoxdur. O, bu dünyaya sığmır. Strikłənd, yazıçı və sənət adamlarının cəmiyyətində mövqe tutmaq istəyən qadına lazım olan ər tipi deyildi. Əslində cəmiyyətin bu qaydalarına tabe olmaq xanım Strikləndin maskası idi. K.Q.Yunqun nəzəriyyəsinə əsasən latınca "persona" adlanan arxetip bizim ictimai üzümüzü təmsil edir, başqa insanlarla münasibətdə, sosial tələbatımızı yerinə yetirmək üçün oynadığımız rol mənasını ifadə edir. Bu arxetip bizə digər insanlardan həqiqəti gizlətməyə və ya onlara yaxşı təəssürat bağışlamağa lazım olur. (3)

XX əsrin İngiltərə cəmiyyətindəki sosial qaydalar kişilərin işə getməsi, qadınların isə ailə qayğıları ilə məşğul olmasından ibarət idi. Xanım Strikləndə belə etmişdir. On səkkiz yaşında birja dəllalı ilə evlənmiş və on yeddi illik evliliyi boyunca ahəngdar bir həyat yaşamışdı. Bu dövrdə azadlıq, mənvi dəyərlər uğrunda mübarizə ön plana çəkilmişdi. Zəhmətsevərlik, evdarlıq kimi keyfiyyətlər normaya çevrilmişdi. Lakin əri qaçdıqdan sonra başqalarını və özünü aldadaraq hələ də əri olmasına dair sosial "maska" taxırdı. Ərinin dühası dünya tərəfindən tanındıqdan sonra ədrhal özünü elə apardı ki, guya ərinin rəsm kariyerasına kifayət qədər dəstək olur və onun bu istedadını yüksək qiymətləndirir. Bu maskalar altında Strikləndlər özlərini aldadırdı. Fərq ondan ibarət idi ki, xanım Strikłənd ömrünün sonuna kimi bu maskada qalmaq istəyirdi. Lakin Çarlz strikłənd qəlbinin səsinə qulaq asdı və bu maskanı parçaladı. Xanım Strikłənd əri onu tərk etdikdə belə özündən şaiyə yayır ki, əri Empayr balet teatrında ilk dəfə gördüyü fransız aktrisaya vurulub və onunla gedib. Sərt patriarxal sistemin hökm sürdüyü dövrdə ər hakimiyyəti təmsil edirdi.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 417-423*
Ərsiz qadın qınaq obyektinə çevrildiyindən xanım Strikland israrla ərinin onu tərk etdiyi gerçəyini gizlədirdi.

Bunu etməkdə xanım Striklendin məqsədi ərinin ondan, ailə həyatından bezdiyi faktını ört-basdır etmək idi. Bu şaiyəni yaymaqla xanım Striklendin hörməti artdı hətta sonra iş tapmağa belə kömək etdi. Əvvəlcə gənc yazıçı, əsərin təhkiyəçisini ərinin arxasınca Parisə göndərir ki, onu yola gətirsin və səbəb nə olursa olsun onu bağışlamağa hazır olduğunu bildirir. Lakin onun məhz rəssamlıq etmək üçün ailəsini tərk etdiyi biləndə *" Bu gündən o, mənim üçün yad bir adamdır* " deyir (4, s.69) . Gənc yazıçı bunları eşitdikdə təəccübünü gizlədə bilmir. "*Demək istəyirsiniz ki, başqa bir qadına görə sizi atıb getsəydi, onu bağışlayardınız, amma arzusu, ideyası onu çəkib aparıbsa, yox?"* (4, səh.69) Xanım Striklendin şəxsiyyəti onu maddiyyata aludə olan ikiüzlü qadına çevirir və bu da Çarlz Strikland üçün dözülməz amil idi.

S.Moem insan davranışlarının altında gizlənən motivlərə yaxşı bələd idi və onları necə ifşa etməyi bilirdi. Obrazları özünməxsus xarakterik ifadə və jestlərlə tipik situasiyalar yaradaraq onların ifşa olunmasına məcbur edirdi. S.Moem snob obrazlarını-sosial nərdivanda özlərindən yuxarıda olanlara rəğbət bəsləyən, aşağı olanlara isə ikrah hissi ilə yanaşmalarının xüsusi üslubla təsvirinə nail olmuşdur. Xanım Striklendin bacısı Mak Əndurunun da timsalında dövrün snob digər obrazını görmək mümkündür.

"*Londona gələndən sonra gördüm ki, missis Striklənddən kağız gəlib. O təkidlə xahiş edirdi ki, axşam onlara baş çəkim. Polkovnik Mak-Əndru da arvadı ilə onlarda idi. Onun arvadı missis Striklendin böyük bacısı idi. Bacılar bir-birinə oxşasalar da, gənclik təravəti getmiş missis Mak-Əndru çox təkəbbürlü idi: elə bil, Britaniya imperiyasını cibində gəzdirirdi. Ötkəmlik böyük zabit arvadlarının hamısına xasdır, onlar fəxrlə düşünürlər ki, guya ali silkə mənsubdurlar. Bu diribaş qadın az qala demək istəyirdi ki, mundir geyənlərin hamısı əmr-göstəriş verəndi. Qvardiyaçıları lovğa hesab edir, zəhləsi gedirdi, onların ədabaz arvadları haqqında danışmaq belə istəmirdi. Paltarı qiymətli parçadan olsa da, zövqsüz tikilmişdi.*" (4, s.64)

Əsərdə təcəssüm olunan fərd və cəmiyyət problemini şərh edərək qeyd etmək olar ki, umumiyyətlə, persona arxetipi və snobizmin hər ikisinin ictimai-psixoloji hadisə kimi dəyərləndirmək olar. Persona maskası insana cəmiyyət tərəfindən özünü aparmaq barədə göstərilən təzyiq nəticəsində əmələ gəlir və paradoksal şəkildə bütün müsbət cəhətlər-əxlaq, mənəviyyat persona ilə formalaşır. Snobizm isə bütün müxtəlif çalarlarına baxmayaraq mənfi hadisə kimi dəyərləndirilir. Lakin bununla belə bu iki hadisə arasında oxşar cəhətlər də vardır ki, bu da təqliddir. İctimai durumdan asılı olaraq insan yaxşı və ya pis kimisə təqlid edir.

S.Moem insanı azadlıqdan məhrum edən sosial qaydalara qarşı çıxan Striklendi başa düşür. Ancaq Strikland insan olmağın sərhədlərini keçəndə yazıçı bununla razılaşmır. Striklendin Blanş Stryovu öldürməsi (son nəticədə qadını intihara sürükləməsi qətl kimi yozula bilər) ilə həm də özündə olan insanı məhv edir. Ədəbiyyatşünas V.Skorodenko yazır:" Strikland sənətə xidmət üçün özündə

insanlığı öldürür." (7) Bununla da, ümumbəşəri əxlaq baxımından ruhsuz, əxalqsız bir insana çevrilir. Əslində rəssam Strikləndin faciəsi məhz XX əsrdə insan münasibətlərində baş vermiş bu dəyişikliklərdən qaynaqlanır.

S.Moemin təfsirinə görə, rəssam Strikl ənd bütün nəzər-nöqtələrdən adi insandan fərqli olaraq ölçüyəgəlməz dərəcədə əhəmiyyətlidir. Müəllifin yaradıcı insan, sənətkar talelərindən yazılmış bütün əsərlərdə hər bir sənətkarın, yazıçının, aktyorun və s.-nin cəmiyyət tərəfindən qəbul edilməyən həyatına bəraət qazandırır. Yazıçı israrla vurğulayır ki, sənətkarın zəhmətinin bəhrəsi özü bu barədə düşünməsə də, insanlara gərəkli olmasıdır. Buna görə də, Moem adi insanı bağışlamadan sənətkarın həyatına bəraət qazandırır, amma oxucuya əsas məsələni də unutmağa imkan vermir; məhz gözəlliyə xidmət etmək sənətkarı çox şeydən azad edə bilər, gözəlliyi duymaq, hiss etmək dahi şəxsiyyətin özünü kəşf etməsinə şərait yaradır - və insanı ona doğru aparır. Sonda gözəlliklə əxlaqın mübahisəsi əxlaqın xeyrinə həll olunur.

Beləliklə deyə bilərik ki, S.Moemin ədəbi əsərləri cəmiyyətin ciddi iğtişaşlar yaşadığı bir vaxtda yarandığından, insanların mənəviyyatında, ictimai həyatında baş vermiş böyük dəyişikliklər onun əsərlərində öz əksini tapmışdır. Dünyəvi etikaya, sosial mədəniyyət və digər ənənəvi estetik dəyərlərə zidd olan çoxsaylı irrasional fəlsəfə ortaya çıxdığı zamanda təsadüfi deyil ki, xarici maddi aləmin inkarı, daxili mənəvi aləmin təsdiqi, ictimai utilitar dəyərin inkarı, fəlsəfi esteik həyatın təsdiqi S.Moemin başlıca dəyər oriyentasiyasına çevrilmişdir.

**Ədəbiyyat**:

1. Coote,S. The Penguin History of English Literature.- New York, -1993
2. Fry, R. The Artist and Psyco-Analysis.- London,-1924,-p.134
3. Jung,C.G. The Archetypes and the Collective Unconscious, Princeton University,-1969,-p.419
4. Moem, S. Ay Və Qara Qəpik.- Bakı, Qanun Nəşriyyatı,- 2015,- 274s.
5. Morgan, D. Snoberry, Policy Press,-2018, -p.165
6. Maugham S. Razor's Edge ,Vintage books,- USA ,-2003
7. Скороденко В.А. Предисловие/The Moon and sixpence. -Moscow Progress Publishers, -1972 c.3-28
8. Уильям Сомерсет Моэм.Собрание. 1-том Москва 1991 (5 том)
9.Merriam-Webster.com Dictionary, Merriam-Webster, https://www.merriam-webster.com/dictionary/snobbery. Accessed 10 Dec. 2023.
10. https://study.com/academy/lesson/freuds-psychoanalytic-theory-on-instincts-motivation-personality-development.html

**İsmayılova Günay Arif qızı**

**S.MOEMİN YARADICILIĞINDA SNOBİZM VƏ İNCƏSƏNƏT PROBLEMİ**
**("Ay və qara qəpik" romanı əsasında)**
**XÜLASƏ**

Məqalədə XX əsrdə insanların mənəvi durumunda, ictimai-sosial həyatında baş vermiş dəyişikliklər araşdırılmışdır. Sübuta yetirilmişdir ki, insan mənəviyyatında baş vermiş bu köklü dəyişikliklərin səbəbi mәhz həmin dövrə təsadüf edən Dünya müharibələri olmuşdur. Snobizm anlayışı "Ay və qara qəpik" romanı üzərindən təhlil müstəvisinə gətirilmişdir. Yazıçının romandakı obrazların özünəməxsus ifadə və jestləri vasitəsilə tipik situasiyalar yaradaraq onların ifşasına nail olması araşdırılmışdır. Bundan əlavə snobizm məfhumunun persona arxetipi ilə müqayisəli təhlili də məqalədə öz əksini tapmışdır. Sübuta yetirilmişdir ki, snobizmi mütləq zehniyyət kimi dəyərləndirən yazıçı bu sosial hadisənin səbəblərini də məhz həmin dövrün insani münasibətlərində baş vermiş dəyişikliklərdə görür. Əsərin protoqonisti dahi rəssam Striklәndin faciəsini də məhz bununla əlaqələndirir.

**Açar sözlər: snobizm, yaradıcılıq,arxetip, sosial,persona**

**Исмаилова Гюнай Ариф**

**ПРОБЛЕМА СНОБИЗМА И ИСКУССТВА В ТВОРЧЕСТВЕ С. МОЭМ**
**(по роману «Луна и грош»)**
**Резюме**

В статье исследованы изменения, произошедшие в духовном состоянии людей и их общественной жизни в XX веке. Доказано, что причиной этих фундаментальных изменений в духовности человечества стали именно мировые войны, произошедшие в тот период. Понятие снобизма было доведено до уровня анализа благодаря роману «Луна и грош». Исследовано умение писателя раскрыть героев романа, создавая типичные ситуации посредством уникальной мимики и жестов. Кроме того, в статье отражен сравнительный анализ понятия снобизм с архетипом личности. Доказано, что писатель, ценящий снобизм как абсолютное мышление, видит причины этого социального явления в изменениях, происходивших в человеческих отношениях того периода. С этим протогонист произведения связывает трагедию гениального художника Стрикленда.

**Ключевые слова: снобизм, творчество, архетип, социальное, личность.**

**İsmayilova Gunay Arif**

**PROBLEM OF SNOBISM AND ART IN MAUGHAM'S CREATİVİTY**
**(based on the novel "The Moon and sixpence")**

**SUMMARY**

In the article, the changes that took place in the spiritual condition of people and their social life in the 20th century were investigated. It has been proven that the cause of these fundamental changes in human spirituality was precisely the World Wars that occurred during that period. The concept of snobbery was brought to the level of analysis through the novel "The Moon and sixpence". The writer's ability to expose the characters in the novel by creating typical situations through unique expressions and gestures was investigated. In addition, a comparative analysis of the concept of snobbery with the persona archetype is also reflected in the article. It has been proven that the writer who values snobbery as an absolute mentality sees the causes of this social phenomenon in the changes that took place in the human relations of that period. The protogonist of the work connects the tragedy of the genius artist Strickland with this.

**Keywords: snobbery, creativity, archetype, social, persona**

**Redaksiyaya daxil olma tarixi: 10.04.2024**
**Çapa qəbul olunma tarixi: 24.04.2024**
**Rəyçi: prof.Quliyev Q.**
**tərəfindən çapa tövsiyə olunmuşdur**